DÜNYA

NATO Rusiyanın mümkün hücumuna cavab planını təqdim edib

Oktyabr 13, 2026



Aleksus Qrinkeviç

NATO rəsmisi Rusiyanın ehtimal olunan hücumuna qarşı hazırlanmış cavab planını ictimaiyyətə təqdim edib. Alyansın Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanı **Aleksus Qrinkeviç**in açıqladığı strategiyaya Kalininqrad vilayəti və Belarusa, eləcə də Sankt-Peterburq yaxınlığındakı strateji hədəflərə zərbələr endirmək daxildir. Bu barədə məlumatı "The Wall Street Journal" qəzeti yayıb.

Planın əsas məqsədi mümkün işğalın qarşısını elə ilkin mərhələdə almaqdır. Əgər təcavüz davam edərsə, qarşı tərəfin öz qüvvələrini idarə etmək və onlara maddi-təchizat dəstəyi vermək imkanları maksimum məhdudlaşdırılacaq.

"Münaqişənin qaçılmaz olduğunu düşünmürəm. Qətiyyən elə deyil. Amma törədilən təxribatların və qəsdən yaradılan gərginliklərin miqyasını nəzərə alsaq, zənnimcə, alyans ölkələrinin əhalisi müəyyən dərəcədə narahatdır. Alyansımızın bir milyard vətəndaşını əmin etmək istəyirəm ki, biz bunun öhdəsindən gələcəyik", —Qrinkeviç Varşava Təhlükəsizlik Forumunda bildirib.

Təqdim olunan strategiyada geniş bir "avtonom zona"nın yaradılması nəzərdə tutulur. Bu zonada dronlar və yerüstü robotlar Rusiyanın hücumunu dayandırmalıdır ki, müttəfiq qoşunlar arasında ciddi canlı qüvvə itkisi baş verməsin.

Uzaqmənzilli raketlərin isə Kalininqrad vilayətində, Sankt-Peterburq ətrafında və Belarusda yerləşən Rusiya komanda məntəqələrinə, həmçinin hava hücumundan müdafiə obyektlərinə zərbələr endirməsi planlaşdırılır.

Plana əsasən, NATO-nun hərbi hava qüvvələri döyüş meydanına doğru irəliləyən Rusiya qoşunlarına, eləcə də arxa cəbhədəki digər mühüm hədəflərə operativ zərbələr endirəcək.

"The Wall Street Journal" yazır ki, bu yanaşma "Şərq cinahında çəkindirmə təşəbbüsü" adlanır. ABŞ hərbçilərinin sözlərinə görə, əsas məqsəd Rusiya prezidenti Vladimir Putini NATO-nun müdafiə qabiliyyətini yenidən qiymətləndirməyə və mümkün hücum fikrindən daşındırmağa vadar etməkdir. NATO bu strategiya çərçivəsində öz döyüş hazırlığını nümayiş etdirmək üçün mütəmadi olaraq hərbi təlimlər keçirir.



12 oktyabr

Çexiya kəşfiyyatı: Rusiya NATO ölkələrində daha riskli əməliyyatlara başlaya bilər

Rusiya yaxın aylarda Ukraynanı dəstəkləyən NATO üzvü ölkələrdə daha riskli və genişmiqyaslı əməliyyatlara əl ata bilər. Bunu Çexiyanın təhlükəsizlik xidmətinin rəhbəri **Mixal Kudelka** oktyabrın 12-də bildirib. Onun sözlərinə görə, Moskva "deeskalasiya üçün eskalasiya" taktikasına keçir.

Rusiyanın mümkün əməliyyatlarına NATO ölkələrindəki Ukraynaya yardım obyektlərinə təxribatlar, həmçinin Kiyevə göndəriləcək silah anbarlarına dron və ya raket hücumları daxildir.

Kudelka parlamentdə keçirilən təhlükəsizlik konfransında danışıb. Onun fikrincə, ən ekstremal halda NATO-nun qonşu üzv ölkələrindən birinə qarşı məhdud hərbi əməliyyat da aparıla bilər. O, Rusiyanın hazırda bütün qüvvələrini Ukraynada cəmlədiyini də əlavə edib.

Kudelka Çexiya kəşfiyyat xidmətində ölkəyə qarşı birbaşa təhdidlə bağlı hələlik konkret məlumatın olmadığını bildirib.

Almaniyanın daxili kəşfiyyat qurumunun rəhbəri **Sinan Selen** isə oktyabrın 12-də bildirib ki, Rusiya hibrid əməliyyatlarda əlindəki, demək olar, bütün vasitələrdən istifadə edir. Bu əməliyyatlara Almaniyada planlaşdırılan sui-qəsd cəhdləri də daxildir.

Selen Berlində keçirilən mətbuat konfransında deyib ki, Leypsiq/Halle hava limanındakı dron insidentinə bənzər hadisələrin təkrarlanacağı gözlənilir.

Almaniya rəsmiləri avqustda Leypsiq hava limanında Ukraynaya yük daşıyan təyyarələrə edilən dron hücumu cəhdində də Rusiyanı günahlandırıblar.

Kreml bu ittihamları rədd edib. Rusiya prezidenti **Vladimir Putin** bu yaxınlarda ölkəsinin heç bir Avropa dövlətinə hücum planının olmadığını deyib. Moskva təxribat və hibrid müharibə əməliyyatlarında iştirakını da dəfələrlə inkar edib.

Buna da bax:

Almaniyada casusluq qalmaqalı: 'Azərbaycan vətəndaşı üçüncü ölkənin aləti ola bilərdi' – Politoloq

Rusiya Danimarkanın müdafiə zavodlarını hədəf alır – Kəşfiyyat

Almaniya Rusiya ilə silahlı münaqişəyə cəlb
oluna bilər – kəşfiyyat rəhbərindən xəbərdarlıq

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur